# *Mövzu 4.* SİYASƏTDƏ İŞTİRAKIN QENDER PROBLEMLƏRİ

1. *«Siyasətdə iştirak» və «siyasi fəaliyyət» anlayışlarının mahiyyəti. Qadınların siyasətdə iştirakının inkişafında feminizm və sufrajizmin rolu*
2. *Qadınların siyasətdə iştirakı üzrə elmi tədqiqatların əsas istiqamətləri*
3. *Seçkidə iştirakın qender aspektləri*
4. *Azərbaycanda siyasətdə iştirak və qender*

## ***1.*** **«Siyasətdə iştirak» və «siyasi fəaliyyət» anlayışlarının mahiyyəti. Qadınların siyasətdə iştirakının inkişafında feminizm və sufrajizmin rolu**

Tədqiq olunan problemi təhlil etməzdən əvvəl mühazirə çərçivəsində istifadə olunan əsas terminləri – «siyasətdə iştirak» və siyasi fəaliyyət araşdırmaq gərəkdir. *Siyasətdə iştirak* siyasət subyektlərinin mövqeyi və fəaliyyətinə təsir etmək məqsədi ilə siyasi hadisələrə, proseslərə və s. cavab reaksiyası olan hərəkət yaxud hərəkətlər məcmusudur. Siyasətdə iştirak fərdi yaxud kollektiv, təşkil olunmuş yaxud kor-təbii, müntəzəm yaxud təsadüfi, dinc yaxud zorakı, qanuni yaxud qeyri-qanuni ola bilər.

Siyasi maraqların başqa bir reallaşma forması ictimai fəaliyyətin xüsusi, spesifik sahəsi olan *siyasi fəaliyyətdir*. Siyasi fəaliyyət ictimai qrupların hakimiyyəti əldə etmək, ondan istifadə etmək və əldə saxlamaqla əlaqədar siyasi marağını həyata keçirmək üçün istifadə etdiyi hərəkətlər məcmusudur. Yüzilliklər ərzində qadınların siyasi marağını həyata keçirmək mexanizminin real imkanı olmaması cinsə görə siyasi, mülki və hüquqi ayrı-seçkiliyin əsas səbəbi olmuşdur.

Qadınlar siyasətə nisbətən yaxın zamanlarda – XIX əsrin sonlarında, feminizm nəzəriyyəsi və təcrübəsinin inkişafı nəticəsində cəlb edilməyə başlandı. «Feminizm» (fransızca «femme» - qadın) termini özü hərəkatdan demək olar ki, yüz il əvvəl yaranmışdı – onu bu hərəkatın ictimai əhəmiyyətli amil olduğu XIX əsrin sonunda Aleksandr Düma-oğul danışığa daxil etmişdi. Feminizin bir çox forma və ənənələri vardır: bütövlükdə isə onu qadın bərabərliyi uğrunda hərəkatdan daha çox şəxsiyyətin nəslin repressiv hakimiyyətindən azad olması, fərdin nəsli başlanğıcdan ayrılması, avtonomlaşması naminə hərəkatın fəlsəfəsi yaxud ideologiyası adlandırmaq olar.

İlk mütəşəkkil qadın çıxışları Fransada XVIII əsrin sonundakı fəal qadınların siyasi iştirakı çox tezliklə boğuldu; lakin XIX əsrin 30-cu illərindən başlayaraq qadın hərəkatı yenidən canlanmağa başladı. Bu dəfə onun inkişafına təkan verən Qərbi Avropada ənənəvi həyat tərzini kökündən dəyişdirən sənaye inqilabi oldu. Quruluşun modernləşməsi iri sənayenin inkişafı, şəhərlərin artması, kiçik kənd təsərrüfatlarının iflasa uğraması ilə müşaiyət olunurdu. Bununla yanaşı əvvəlki ailə həyatı tərzi pozulur, kişi və qadın arasında münasibət böhranı baş verirdi. Ənənəvi ailə münasibətlərinə dağıdıcı təsir edən iki şərt – qadınların kütləvi surətdə ictimai istehsalata cəlb olunması və uşaq doğumunun getdikcə nəzarət altında saxlanması oldu. Sənaye inqilabının təsiri altında ictimai istehsalatda kütləvi qadın əməyi sosial həyatın heç də birmənalı olmayan faktına çevrildi. Qadınları muzdlu işçilərin hüququnu müdafiə edən həmkarlar ittifaqına, yaxud başqa ictimai təşkilatlara qəbul etmirdilər. Beləliklə, qadınların birgə kollektiv çıxışı üçün, qadın maraqlarını və hüquqlarını qoruyan qadın təşkilatlarının yaranması üçün yeni zəmin meydana çıxırdı. Kollektiv gücün hesabına qadınlar kişilərlə bərabər görülən iş üçün bərabər zəhmət haqqının verilməsinə nail olur, buraxılmadıqları ixtisaslara buraxılmaq tələbi irəli sürürdülər. İşləyən qadın özünün də xüsusi sosial, mülki və siyasi maraqlarının olduğunu və bu maraqları qorumaq lazım gəldiyini dərk etməyə başladı. Mülki və partiya-siyasi həyatı sahələrinin mənimsənilməsi, qadınların əmək hüququnun, onun layiqli ödənişinin, təhsil hüququnun, ana və uşaqların, xəstələrin, əlillərin və yaşlı insanların müdafiəsi üzrə sosial zəmanət hüququ – bütün bunlar qadın hərəkatının vəzifəsi kimi başa düşülürdü.

Hərəkatın təşəkkül tapması və möhkəmlənməsi XIX əsrin ortalarına təsadüf etdi. İngilis feminizminin ən görkəmli nümayəndələrindən biri olan Milisent Fausett yazırdı: «Ümuiyyətlə mövcud olan ən gözəl hərəkatlardan biri müasir nəslin gözü önündə getdikçə inkişaf etməkdədir. O bir ölkə daxilində qapanıb qalmayıb və Qərb sivilizasiyasına tabe olan bütün millətlərdə özünü biruzə verir. Bu – inqilabdır, amma zorakılıqsız bir inqilab».

Qadınlara öz marağını həyata keçirmək üçün kişilərlə bərabər hüquq verilməsində həlledici rol oynayan, qadınlara da ümumi seçki hüququnun verilməsini tələb edən ən fəal qüvvə – sufrajizm (ingiliscə «suffrage» – seçki hüququ) oldu.

Sufrajizmin inkişafına, bu hərəkatın müxtəlif formalarının və siyasətdə iştirakın aşkar olunmasına, həmçinin qadınların siyasi fəaliyyətə cəlb olunmasına ən parlaq nümunə – onun Böyük Britaniyadakı inkişafıdır. Məhz İngiltərə ilk dəfə bir çox demokratik institutların (parlament, and iclasçıları) tətbiq edildiyi, «Böyük sərbəstliklər Xartiyası» və «Hüquqlar haqqında bill» kimi liberalizm ideyalarının (Tomas Qobbs, Con Lokk) inkişaf etdirildiyi sənədləri qəbul etmiş ölkə sayılır.

İngiltərədə ilk suffrajist təşkilat (Qadın suffrajistlərin Şeffild assosiasiyası) 1851-ci ildə yarandı. 60-cı illərdə bu cür təşkilatlar İngiltərənin digər şəhərlərində də yaranmışdı və bu 1868-ci ildə ümummilli suffrajist təşkilatının – Milli suffrajist cəmiyyətləri federasiyasının (MSCF) yaranmasına səbəb oldu. MSCF parlament seçkilərindən daha çox yerli seçkilərdə cəmləşərək liberallar partiyasında yarımsuffrajist meyilləri gücləndirməyə çalışır; suffrajistlərə rəğbətlə yanaşan namizədlərə sponsorluq edir; kütləvi nümayişlər, yürüşlər, banketlər, qəbul, dini və digər ictimai təşkilatlarla görüşlər keçirirdi. Onun öz ştatı vardı, «Ümumi iş» adlı qəzet buraxırdı, fəhlə təşkilatları ilə əməkdaşlıq edərək Şotlandiyada, İrlandiyada və Uelsdə öz təsirini genişləndirmək yönündə iş aparırdı. Ancaq konstitusiya yollu ilə parlamentə və hökumətə təsir göstərərək imkanlı ev sahibləri olan qadınlar üçün seçki hüququ ilə bağlı qanun qəbul etmək yolunda cəhdinə və çalışmasına baxmayaraq, onlar elə də səs hüququna malik ola bilmədilər.

Böyük Britaniyanın suffrajist hərəkatı tarixinin timsalında qadınların siyasətdə iştirakının ən müxtəlif formalarının təşəkkül tapması və təkamülünü izləmək mümkündür. Suffrajizmin fəal şəkildə XIX əsrin ikinci yarısından başlayaraq inkişaf etdiyi digər ölkələrin əksəriyyətində əsasən dinc mübarizə metodları (nümayişlər, mitinqlər, yürüşlər, təşviqat tədbirləri, dövri mətbuatda kampaniyalar və s.) üstünlük təşkil edirdi. Bəzi qərbi və orta qərbi ştatlarda qadınlar hələ XVIII əsrin sonunda səsvermə hüququ əldə etmişdilər (Vayominq, Yutta və s.). Məhz qadın sufrajizm təşkilatlarının kütləvi təzyiqi altında 1920-ci ildə Konqress Konstitusiyaya 19-cu düzəlişi qəbul etdi ki, orada ABŞ vətəndaşlarının səsinin hansısa cinsə aid olmasından asılı olmayaraq nə ümümmilli, nə də federal səviyyədə (düzəliş Süzen Entoninin hələ 1878-ci ildə təklif etmiş olduğu formada qəbul edilmişdi) məhdudlaşmaması elan olunurdu.

Suffrajist hərəkatının inkişafı qəti şəkildə qadınlara səsvermə hüququnun verilməsinə və ümumiyyətlə onların siyasi sahəyə cəlb olunmasına qarşı çıxan antisuffrajistlərin etirazı ilə müşaiyət olunurdu. Lakin antisuffrajistlərin etirazına baxmayaraq Qərbdə suffrajist hərəkatı XX əsrin ilk onilliklərində mühüm bir qüvvəyə çevrildi ki, əvvəl adlarını çəkdiyimiz Yeni Zelandiya, Avstraliya və ABŞ-dan başqa bir çox ölkələrdə də qadın seçki hüququnun tədricən tətbiqi buna sübutdur: 1906-cı ildə – Finlandiya; 1913-cü ildə – Norveç; 1915-ci ildə – Danimarka və İslandiya; 1917-ci ildə – Rusiya; 1918-ci ildə – Kanada; 1919-cu ildə – Avstriya, Almaniya, Niderland, Polşa, İsveç, Lüksemburq, Çexoslovakiya; 1922-ci ildə – İrlandiya, 1928-ci ildə – Böyük Britaniya; 1934-cü ildə – Türkiyə və s.

## 2. Qadınların siyasətdə iştirakı üzrə elmi tədqiqatların əsas istiqamətləri

Siyasətdə qender ölçüsü və qadının siyasətdə iştirakı problemləri Qərbi Avropa və Amerikada 1970-ci illərdən başlayaraq mühüm tədqiqat sahəsinə çevrildi. Son 30 il ərzində sosial və mədəni dəyişikliklər və qadın hərəkatının təsiri ilə qadınların siyasətdə iştirakında mühüm dəyişikliklərin baş verməsinə baxmayaraq, demək olar ki, bütün dünyada qadınların siyasi təmsilçiliyi kişilərdən aşağıdır. 90-cı illərin əvvəlində ABŞ senatında qadınlar 2%, Böyük Britaniya parlamentində – 7%, Alman Federativ Respublika parlamentinin üzvləri arasında isə – 10% təşkil edir. E.Giddensin sözlərinə görə, təəccüblü olan qadınların siyasətdə bu qədər aşağı təmsilçiliyi yox, başqa sahələrlə, hətta bizneslə müqayisədə həmin vəziyyətin olduqca ləng dəyişməsidir.

Qadının siyasətdə vəziyyəti dəyişdikçə, qadının siyasətdə iştirakı ilə əlaqədar elmi tədqiqatlardakı vurğu və şərhlər də dəyişməyə başladı.

50 – 60-cı illərdə cinsi mənsubiyyət siyasi davranışı müəyyən edən çoxsaylı kəmiyyətlərdən biri idi. Qadının iştirakı xüsusi bir tədqiqat sahəsi deyildi. Kişi ilə müqayisədə qadının daha az siyasi fəallığına diqqət yönəldən Dyüverjenin pioner tədqiqatından başlayaraq, bu fakt əsasən psixoloji cəhətdən izah edilirdi. O vaxtlar hesab olunurdu ki, qadın ənənəvi dəyərlərə və köhnə fikirlərə daha çox tabedir. Cinsə və davranışa əsaslanan, o cümlədən kişilik (təcəvüzkarlıq) və siyasi fəaliyyətlə bağlı bioloji əlaqə birmənalı qəbul olunurdu.

70-ji illər cinslərin nisbəti və siyasət probleminə marağın artdığı bir dövrdür. Feminist hərəkatının təsiri və qadınların istehsalatda iştirakının genişlənməsi ilə daha çox sayda qadının siyasətdə iştiraka marağı çoxaldı. Tədqiqatların diqqəti getdikcə siyasi sosiallaşma, sosial və iqtisadi problemlərə yönəlməyə başladı. Bu illər nəinki qadının siyasətə gəlişinə və qadın siyasi davranışına yenidən qiymət vermək, həm də əvvəllər şəxsi, xüsusi sayılan bir çox məsələlərə münasibət də dəyişdi. Qadın hərəkatının «şəxsi olanlar – ictimaidir» şüarı cəmiyyətdə şəxsi (xüsusi) və ictimai (açıq) sahələrin liberal bölümünün tənqidi kimi qəbul olunurdu. Qadının ictimai sahədən (əmək və siyasət) təcrid olunması «qadın» məsələsinin siyasətdən çıxarılması demək idi. Belə siyasəti feministlər patriarxal adlandırırdı.

80-ci illərdə qadınların siyasətdə aşağı səviyyədə təmsil olunması səbəblərinin nisbi konvensial təsviri yarandı. Siyasətdə iştirakın vacib amilləri arasında siyasi sosiallaşma, struktur və situasiya (bioqrafik) amillər də göstərilirdi.

Müxtəlif *siyasi sosiallaşma* kişi və qadını cürbəcür rollara, siyasətə və ümumiyyətlə fəal davranışa başqa-başqa münasibətə səmtləndirir. Siyasi sahə qadının həyat qüvvəsini sərf etməsi üçün əlverişsiz sahə sayılır. Sosiallaşma prosesində məqsədə nail olmağa istiqamətlənmiş müstəqil, inamlı oğlan davranışı və ətrafdakıların qayğısına qalmağa istiqamətlənən asılı qız davranışı həvəsləndirilir.

T.Parsonsun ənənəsində siyasi sosiallaşmanın təsiri aşağıdakı kimi şərh olunur. Kişi siyasətə daha çox karyera qurmaq məqsədi ilə gəlir. Bu sahədə də o, ailədəki kimi sistemin xarici vəzifələrinə istiqamət götürərək «instrumental» funksiyalarda ixtisaslaşır. Qadın siyasətçilər karyeraya daha az üstünlük verərək «ekspressiv» funksiyalarda, sistemin daxili vəzifələrində ixtisaslaşır, onun üzvlərinin inteqrasiyasını təmin edir.

Səbəblərin ikinci bloku iştirakın *struktur* amilləridir, yəni onlar cəmiyyətin sosial strukturu ilə bağlıdır. Onların arasında kişi və qadının siyasətdə istifadə edə bildiyi ehtiyat-ların paylanmasında qeyri-bərabərlik mövjuddur. Qender sisteminin müəyyən etdiyi təhsildə, gəlirdə, iş təcrübəsindəki qeyri-bərabərlik ona gətirib çıxarır ki, qadınlar siyasətdə cəmlənmənin baş verdiyi qatlarda daha az təmsil olunur, buna görə də onların siyasətdə iştirak şansı daha az olur.

Üçüncü bloku *situativ (bioqrafik)* amillər təşkil edir. Onlar qadının müasir cəmiyyətdə keçdiyi həyat yolunun xüsusiyyətləri ilə bağlıdır. İndiyə kimi qadın əksərən ev işləri və uşaq tərbiyəsinə cavabdeh idi və buna görə də siyasi fəaliyyət üçün ona lazımi vaxt və eneji çatışmırdı.

Dediyimiz üç amil blokundan başqa müəlliflər qadının siyasi iştirakının səbəbi olaraq onların siyasi fəallığına mane olan ayrı-seçkiliyi də misal göstərirlər. Bu, həm qadına əsas siyasi vəzifələri tapşırmamaq istəyindən, həm də seçicilərin qadına səs verməmək istəyindən irəli gəlir. Nəzərə çatdırılır ki, hazırda həm elektorat, həm də kişi siyasətçilər qadınlara qarşı daha loyal mövqe tuturlar.

Qadının siyasətdə iştirakı probleminə nəzəri yanaşmaların dəyişməsi cəmiyyətdə qadının vəziyyətinə paradiqmal yanaşmanın dəyişməsi ilə bağlıdır ki, onu sxematik olaraq aşağıdakı kimi təsvir etmək mümkündür. 50-60-cı illərdə qender fərqləri cinsi mənsubiyyətə görə fərq kimi şərh edilirdi və elmi mübahisələrdə «qender» terminine hələ vərdiş olunmamışdı. Cinsi fərqlər bioloji cəhətdən əsaslanmış və iyerarxik olaraq təşkil olunmuş kimi izah olunurdu. Belə şərhə əsasən, qender fərqləri qender bərabərliyni nəzərdə tutmur. Buna qadına münasibətin müdafiəyə ehtiyacı olan «zəif cins»ə münasibət kimi misal gətirmək olar.

70-ci illərdə iki yeni yanaşma meydana gəldi - neytral qender və həssas qender. *Neytral qender* yanaşması qender bərabərliyi və qender fərqinin olmaması prinsipinə əsaslanır. İdeoloji olaraq o, qadın hərəkatının liberal istiqaməti ilə əlaqəlidir. *Həssas qender* yanaşması qender bərabərliyinin və qender fərqinin birliyini qeyd edir. O, qadın hərəkatının radikal istiqaməti ilə bağlıdır.

XX əsrin son üçdə birində qadınların sərəncamında olan siyasi ehtiyatların miqdarı artdı; bəzi təşkilatlarda qadın iştirakının səviyyəsi hətta kişilərdən daha yüksək oldu. Buna müvafiq olaraq metodoloji vurğu da həssas qender yanaşmasına sarı dəyişdi və tədqiqatçılar qarşıya qadının siyasətə hansı spesifiklik gətirdiyini araşdırmaq vəzifəsi qoydular.

1980-cı ildə ABŞ-dakı prezident seçkilərində konservativ namizəd Ronald Reyqanın uğurundan sonra amerikan feminist diskursunda «qender uyğunsuzluğu» (qender gap) anlayışından istifadə etməyə başladılar. Bu məhfum siyasi iştirakda, qiymətdə, partiya meyllərində və kişi ilə qadının səsverməsində olan və qarşısı alına bilməyən qender əsaslı ziddiyyətləri əks etdirir. O, mühafizəkar siyasətə dəstək verməkdə qadınların kişilərdən daha az fəallığını nəinki qeyd edir, həm də şərh edirdi.

Kişi və qadın üçün eyni imkanlar dövlət siyasətinin aparıldığı, təhsil səviyyəsinin və istehsalatda iştirakın qender nisbətinin bərabərləşdirildiyi, kişi və qadın üçün siyasi ehtiyatların bərabər mümkünlüyü olan ölkələrdə siyasi meyillərdə qender ziddiyyəti problemi ya aktuallığını itirir, ya da ki, başqa bir məna kəsb edir. Bu, hər şeydən əvvəl skandinav diskursuna aiddir. 90-cı illərin əvvəlində Skandinaviya ölkələri üzrə orta hesabla qadın deputatları 30%, Finlandiyada isə 39% idi. Qadınların vəziyyətinin yaxşılaşması o dərəcədə əhəmiyyətli idi ki, bütövlükdə siyasətin «üzü» dəyişdi. Qadının siyasətdə iştirakının marginallaşma modeli mümkünsüz hesab olunur, marginallaşma özü isə Skandinaviyada mif kimi qiymətləndirir. Təkcə qadının vəziyyəti yox, cəmiyyətin, dövlətin ona münasibəti də dəyişdi. Məhz Skandinaviyada 90-cı illərin ortalarında qadın üçün əlverişli siyasi münasibətlərə həsr olunmuş tədqiqatlar və qadın marginallaşması nəzəriyyəsinin tənqidi meydana gəldi. Siyasəti qadın üçün əlverişli olan dövlətdə qadının siyasi iştiraka marağının olmadığı haqda müddəalar qeyri-relevant sayılırdı, çünki siyasət kişilərin marağını əks etdirməkdə davam edirdi.

Cinsin siyasətdə iştirakın xarakter və formasına təsiri məsələsini araşdırarkən konvensional və qeyri-konvensional hadisələrə diqqət yetirmək gərəkdir. Konvensional deyiləndə institusional təmsilçilik kanallarından istifadə edən nisbətən adi, xüsusən də seçki kampaniyalarında iştirak və seçkilərdə səsvermə kimi siyasi davranış nəzərdə tutulur. Belə iştiraka misal – leqal dinc yürüşlərdə, nümayişlərdə iştirak, petisiyalara imza atma, səsvermə, namizədlərlə görüşdə iştirak və s. Qeyri-konvensional siyasi iştirak bir qayda olaraq qanun pozulması ilə bağlıdır, çox vaxt bunu məqsəd kimi qarşıya qoymasa da, zorakılıq metodlarının tətbiqi ilə sona çatır. Belə iştiraka misal olaraq icazəsiz mitinqləri, tətilləri, avtonəqliyyatın yolunun bağlanması, vergidən

yayınma, əmlaka zərər vurulması (vitrinlərin, yol işarələrinin daşlanması, fiziki qarşıdurmalar, məsələn, polis ilə) göstərmək olar.

Qadın və kişilərin siyasətdə iştirak formalarını təhlil edərkən qadınlar arasında konvensional formaların üstün olması qeyd edilir. Seçki institutuna marağın artması və qadınların elektoral iştirakının fəallaşması bir sıra səbəblərlə – qadınların savadının yüksəlməsi, onların siyasi mədəniyyət səviyyəsinin artması ilə izah edilir; qadınlar siyasətə daha aktiv cəlb olunur, müxtəlif səviyyəli təmsilçilik institutlarına seçilir; bəzi tədqiqatçılar bu faktı qadınların öz vətəndaş hüquqlarının reallaşmasında daha məsuliyyətli və daha mütəşəkkil olmaqları ilə əlaqələndirir, digərləri isə hesab edir ki, əksər hallarda qərar qəbul etmə səviyyəsindən məhrum olan qadın seçkidə iştirakını qərarın qəbul olunması prosesində iştirak etmək üçün yeganə çıxış yolu hesab edir və bu səbəbdən də özünün səs hüququnun «qədrini bilir»; axı ölkələrin bir çoxunda qadın bu hüquqa uzunsürən və gərgin mübarizə sayəsində malik olmuşdur.

### 3. Seçkidə iştirakın qender aspektləri

Son illərin siyasi həyatının bir çox ölkələrdəki səciyyəvi xüsusiyyəti təkcə qadının elektoral iştirakı deyil, həm də onun seçkilərdə nümayəndə şəklində irəli sürülməsidir. İlk olaraq seçmək və seçilmək hüququnu Finlandiya qadınları 1906-cı ildə qazandılar. Sonrakı onilliklərdə belə hüquqa İkinci dünya müharibəsinin sonuna qədər bir çox ölkələrin qadınları malik oldu, baxmayaraq ki, hələ də müxtəlif vəzifələrə qadın namizədlərin irəli sürülməsində və seçkilərdə qalib gələ bilən qadınların sayında böyük irəliləyiş yox idi. Qadın və kişilərin seçki kampaniyasında iştirakından danışarkən o faktı qeyd etmək lazımdır ki, seçki texnologiyasından istifadə ilə bağlı bilik və bacarıq səviyyəsi hər yerdə bərabər deyil. Bir çox ölkələrdə (bizim ölkəmiz də daxil olmaqla) qadına rəqibi olan kişi ilə daha effektiv və uğurla rəqabət aparmaqda yardımçı olan seçkiqabağı texnologiyanın öyrədilməsi mexanizmi yoxdur. Bir çox qadın namizədlər müvafiq informasiya və məsləhət dəstəyi, reklam kampaniyasının aparılmasına dair biliyi olmadan mübarizəyə qoşulur. Namizəd qadınların əksəriyyəti üçün seçkiqabağı kampaniyanın ayrı-ayrı maliyyələşmə kanallarına çıxış daha məhduddur – indiyə kimi çox az potensial sponsorlar qadının qələbəsinə inanır və onu lazımi sayır. Belə bir qeyri-bərabərliyin aradan qaldırılması üçün bir çox ölkələrdə qadın elektoral iştirakının və onların seçkilərdə namizəd kimi iştirakının inkişafı mexanizmləri yaradılır.

Daha bir misal – 1980-ci ildə Böyük Britaniyada ingilis və amerikan jurnalistlərinin yaratdığı Qrup-300-dür. Bu təşkilatın məqsədi Britaniya parlamentində 635 yerdən heç olmazsa 300-nün qadınlara aid olmasına nail olmaq idi. Bu – partiyadan kənar qrupdur ki, orada həm kişilər, həm də qadınlar iştirak edir; onlar seçkiqabağı kampaniyanın keçirilməsində, partiya siyahılarında namizədlərin irəli sürülməsində qadınlara köməklik göstərir; yerli orqanlara, Böyük Britaniya parlamentinə, Avropa parlamentinə və s. irəli çəkilmək imkanları barədə məlumat verir. Qrup-300 daha çox sayda layiqli qadın namizədlərin siyasi səhnəyə cəlb olunması üçün məsləhət və təlim təşkil edir, buna köməklik göstərir. Qrup-300 siyasi partiyalarda hakimiyyətdə olan kişi siyasətçilərin, həmçinin nüfuzlu kütləvi informa-siya vasitələrinin nümayəndələrinin fikrini qadın üçün daha sərfəli istiqamətdə dəyişərək parlament üzvləriinə təsir etmək məqsədi ilə kampaniyalar keçirir. Qrup cəmiyyəti və siyasi partiyaları inandırmağa çalışır ki, qadın – siyasətdə yeni qüvvədir və hər hansı br partiya az sayda qadın namizədi və deputatı ilə köhnədəbli və zəif görünür. Bəzi ölkələrdə Qrup-300-ün fəaliyyəti əsasında yerli şəraitə uyğunlaşmış qruplar yarandı: Rumıniyada – Qrup-222, Ukraynada seçici qadınlar ittifaqı 50/50, Qanada Qrup-CENSUDI və s. İsrail qadınları təşkilatında və Yaponiyadakı qruplarda təlim Qrup-300 nümunəsi əsasında aparılır. Bilavasitə yaxud dolayısı ilə Qrup-300-ün fəaliyyəti nəticəsində digər hərəkatlar və qadının siyasətə daha fəal cəlb olunmasına kömək mexanizmləri meydana gəldi. Belə ki, 1993-cü ilin fevralında Qrupun fəallarından olan Barbara Folett məqsədi leyborist partiyasından olan qadın

namizədlərə dəstək üçün vəsaitin tapılması və toplanması olan Emili Siyahısı (Emylys`s List UK) işlədi, çünki Britaniya qadınlarının çoxunun seçkiqabağı kampaniyanı təşkil etmək imkanı yox idi. Bu qrup 1985-ci ildə yaranmış demokratik partiyadan olan qadın namizədlər üçün vəsaitin toplanması ilə bağlı amerikan təşəbbüsü üzərində qurulmuşdu.

## 5. **Azərbaycanda siyasətdə iştirak və qender**

Azərbaycanda qadınların ölkənin ictimai-siyasi həyatına cəlb edilməsi Qərb ölkələri ilə müqayisədə xeyli sonra başladı və bu, tarixi inkişaf xüsusiyyətləri ilə bağlı idi. XX əsrin əvvəlində Azərbaycan qadınlarının böyük əksəriyyətinin təhsil, mədəni dəyərlər, ictimai və sosial həyatla əlaqəli imkanı yox dərəcəsində idi və onlar faktiki olaraq ailə istismarı şəraitində yaşayırdı. Buna görə də keçən əsrin ilk onilliklərində Azərbaycanda qadın hərəkatının səciyyəvi xususiyyəti və əsas məqsədi seçki və digər vətəndaş, yaxud siyasi hüquqlar əldə etmək yox, hər şeydən əvvəl qadınların maariflənməsi və xeyriyyəçiliyi idi. Azərbaycanda qadın hərəkatının ilk nümayəndələrinin fəal maarifçilik fəaliyyətinə və bəzi neft sənayeçiləri-mesenatların (hamıdan əvvəl Zeynalabdin Tağıyevin) köməyinə baxmayaraq qadın təhsilində qlobal irəliləyişə nail olmaq mümkün deyildi, siyasi mədəniyyət isə daha aşağı səviyyədə qalmaqda idi.

Vətənimizin rus çarizminin hökmranlığından azad olması və Azərbaycan Demokratik Respublikasının elan olunması Azərbaycan qadınının sosial-iqtisadi və hüquqi statusunun yaxşılaşmasına ümid yaradırdı. Qadınlar təhsil hüququna malik oldu; istehsalatda məşğul olan qadınların sosial müdafiəsini təmin etmək üçün (dekret məzuniyyəti, zərərli istehsalatda işin qadağan olunması, müəssisələrin nəzdində uşaqlar üçün körpələr evi açılması) tədbirlər nəzərdə tutulmuşdu. 21 iyul 1919-cu ildə ADR-nın Təsis iclası bərabər, birbaşa və gizli səsvermə əsasında iclasa demokratik seçki prosedurunu müəyyən etmiş «Azərbaycan Respublikasının Təsis iclasına seçkilər haqqında Nizamnamə» qəbul etdi. «Nizamnamə» ilk dəfə olaraq qadına kişi ilə bərabər seçki hüquqları verirdi. Lakin yeni dövlətin vətəndaşı olan qadınlar ADR-nin süqütu və Azərbaycanda Sovet hakimiyyətinin qurulması üzündən bu hüquqdan istifadə edə bilmədilər.

1920-ci ildən Azərbaycanda qender məsələsi yeni sovet ideologiyası və təcrübəsi çərçivəsində inkişaf etdi. Qender bərabərliyinə nail olmaq sosialist cəmiyyətinin quruluş proqramında əsas yerlərdən birini tuturdu. 1917-ci ilin dekabrında bolşeviklər qadını qanun qarşısında kişi ilə bərabərləşdirərək ona bütün vətəndaş hüquq və azadlıqlarından istifadə imkanı verən Dekret qəbul etdi. 1921-ci ilin noyabrında həmin hüquqlar Azərbaycan qadınlarına da təqdim olundu. Lakin ümumi savadsızlıq (1923-cü ildə Azərbaycan əhalisinin 90% savadsız idi), köhnə, dini təsəvvürlərin hökmranlığı siyasi iştirakın fəallaşmasına heç də yardım etmirdi. Praktiki olaraq sovet qadınlarının mütəşəkkil ictimai fəallığının yeganə aşkarlıq forması qadın şuraları, «jenotdellər», klublar idi. 1920-ci ildə yaradılmış Əli Bayramov adına Mərkəzi qadın klubu (1932-ci ildə Azərbaycanın qadın klublarının miqdarı 40-a çatmışdı) qarşısına əsasən qadın maarifçiliyi və təhsilinin inkişafı, müxtəlif qadın emalatxanalarının, kursların təşkili, çadradan azad olmaq və bütövlükdə sovet rəhbərliyinin apardığı yeni cəmiyyətin mədəni inqilabına dəstək vəzifələri qoymuşdu. Məlum olduğu kimi, bu çox mənalı terminə savadlılıq, dünya haqda biliyin artması, gigiyenik vərdişlərə yiyələnmək kimi ziddiyyətli vəzifələr aid edilir; digər tərəfdən isə bu – kollektivçilik, şəxsi başlanğıcı və seçim azadlığını məhdudlaşdıran prinsiplər təlqin etmək məqsədi ilə əhali arasında kütləvi ideoloji iş demək idi. Məhz mədəni inqlab prosesində qadın nəinki yeni siyasi bilik qazanmalı, həm də cəmiyyətin siyasi cəhətdən fəal üzvünə çevrilməli idi.

Sovet qadınının yeni siyasi mədəniyyətlə ünsiyyəti, onun siyasi həyata cəlb olunması çox vaxt çətinliklərlə qarşılaşır, qadının klubda, «jenotdel»də iştirakı ailə öhdəliklərini yerinə yetirməyə vaxt qalmaması üzündən ailə münaqişələrinə səbəb

olurdu; artıq hamının mənimsəmiş olduğu qadın davranışı stereotipinə (təvazökarlıq, səssiz razılıq, kişinin əsas rol oynaması) uyğun gəlməyən əxlaq normaları və tələblər çoxsaylı tanış olmayan söz və anlayışlarla dolu və çox zaman da qadının gündəlik qayğılarına aidiyyəti olmayan ideoloji sxemlərin mənimsənilməsi ilə bağlı çətinliklər qadının özünə qiymətini laxladır və əsasən siyasi fəaliyyətindən imtina etməsinə səbəb olurdu.

1934-cü ildə faktiki olaraq bütün «jenotdellər» fəaliyyətini dayandırdı və Qorbaçovun yenidənqurma illərində yeni «jensovetlərin» açılmasına kimi qadının idarəetmə vərdişlərinə nail olması və öz marağını dərk etməsi ilə bağlı təşkilatlar daha yaradılmadı. 1936-cı ildə qəbul olunmuş məşhur Stalin Konstitusiyası qanunverijilik qaydasında qadınlara dövlət, təsərrüfat və ictimai-siyasi həyatın bütün sahələrində kişilərlə bərabər hüquqa zəmanət verdi. Əslində bu Konstitusiya və sonradan qəbul olunmuş bir neçə qanun və fərmanlar qadının ailənin möhkəmlənməsi ilə bağlı məsuliyyətini artırır, onun üzərinə əlavə vəzifələr qoyur, amma sovet qadınlarının siyasi fəallığını artırmaq üçün real şərait yaratmırdı. Kvota sisteminin mövcudluğu siyasətə gəlmiş qadınların sayının müntəzəm şəkildə artmasına (belə ki, 1936-cı ilin məlumatına görə SSRİ-də dövlət hakimiyyətinin ali orqanı olan Ali Sovetin deputatlarının 33%-ini; ÜİLKGİ üzvlərinin 50%-dən çoxunu; həmkarlar ittifaqının üzvlərinin 59%-dən çoxunu qadınlar təşkil edirdi) təsir etsə belə, lakin birpartiyalılıq sisteminin mövcudluğu, nomenklatur elitasının hökmranlığı, siyasi rəqabətin olmaması bü yüksək statistik məlumatları heç edirdi; sovet qadınlarının siyasi mədəniyyət səviyyəsinin yüksəlməsi kommunist ideologiyası və sovet təbliğatı çərçivəsi ilə məhdudlaşırdı. Seçkini hakimiyyət təşkilində bir fasad üsuluna çeviriş totalitar dövlətdə səs vermə hüququnun olması (tək seçki məntəqəsində deyil, həm də müxtəlif dövlət orqanlarında) elə bir vəziyyət yaradırdı ki, nə seçənlər, nə də seçilənlər (istər qadın olsun, istər kişi), siyasi qərarların qəbul olunma prosesinə həlledici təsir göstərə bilməzdi. Beləliklə, ictimai əməyin müəyyən sahələri praktiki olaraq qadın üçün əl çatmaz qalırdı. İlk növbədə bu dövləti idarə etmə sahəsi idi. Real siyasi qərarların qəbul olunmasında qadınların iştirak etməməsi qadının siyasi bərabərliyi və sosializmin qurulmasında onun fəal iştirakı ilə, qurultayların, rəsmi iclasların prezidiumlarında qadınların oturdulması ilə, yerli və ali qanunvericilik hakimiyyəti orqanlarında onların say artımı göstəriciləri ilə maskalanırdı.

Sovet dövlətinin süqutu və 1991-ci ildə Azərbaycanın öz müstəqilliyini elan etməsi ilə qender və siyasi iştirak məsələlərində də yeni dövr yarandı. Faktiki olaraq 80-ci illərin sonundan Azərbaycan qadınlarının ictimai-siyasi həyata cəlb olunması ilə bağlı fəal proses başlandı və bu sovet cəmiyyətindəki islahat və demokratikləşmə, Dağlıq Qarabağ ermənilərinin Azərbaycanın ərazi bütövlüyünə iddiası ilə bağlı idi. Azərbaycan qadınları Azadlıq meydanındakı mitinqlərdə, mətbuatda, Azərbaycan dövlətçiliyi və müstəqilliyi naminə təbliğat kampaniyasında fəal iştirak edirdi. Bir neçə qadın sovet qoşunlarının 1990-cı ilin yanvarındakı təcavüzünün qurbanı oldu; hərbi əməliyyatların başlanması ilə Azərbaycan qadınları da vətənin ərazi bütövlüyü uğrundakı mübarizədə iştirak edirdi. Azərbaycan torpağlarının 20% ermənilər tərəfindən zəbt edilməsi, qaçqın və məcburi köçkünlərin sayının artması istər kişi, istərsə də qadınların vəziyyətini (işsizlik, xüsusən də çadır şəhərciyində yaşayan qaçqınların ağır həyat şəraiti, infeksiyalı xəstəliklərin yayılması, ənənəvi ailə əlaqələrin pozulması və s. pisləşdirdi).

80-cı illərin sonunda müşahidə olunan kütləvi siyasi fəallıq 90-cı illərin əvvəlindən zəiflədi, lakin bütövlükdə zəif olsa da tədricən qadınların müxtəlif siyasi fəallıq və fəaliyyətə qoşulması prosesi mövcud idi. Onun səciyyəvi xüsusiyyətlərindən biri əsasən Bakının və bəzi iri şəhərlərin qadın əhalisinin daha fəal olması idi. Azərbaycan qadını ayrı-ayrı siyasi partiya (ən çox Yeni Azərbaycan partiyasında) üzvlərinin qırx faizini təşkil edir, amma ikinci dərəcəli rol oynayır. Partiya çərçivəsində qadınlar «qadın şöbəsi», «qadın şurası» yaradır ki, bu da sovet təcrübəsinin davamı olaraq adətən formal xarakter daşıyır və onları professional səviyyədə siyasətə cəlb olunma, siyasi

qərarların qəbul olunması, dövlət hakimiyyəti orqanlarına buraxıla bilmək imkanını məhdudlaşdırır. Bir çox digər ölkələrdən fərqli olaraq Azərbaycanda sırf qadın siyasi partiyası (məsələn, «Rusiya qadınları» kimi) yoxdur.

Ölkəmizdə 40-a yaxın qadın təşkilatı fəaliyyət göstərir və onların əksəriyyəti əsasən reproduktiv hüquqlar, ailənin planlaşması, ailədə zorakılığa qarşı mübarizə və s. problemlərlə məşğul olur (məsələn, «Sevil» cəmiyyəti, «Qadın və inkişaf» Mərkəzi, Azərbaycan qadın cəmiyyəti, Azərbaycanlı qadınların Bakı assosiasiyası); başqası qadınları professional əlamətə görə (Neft sənayesində məşğul olan qadınların cəmiyyəti, «İşgüzar qadın» assosiasiyası, Jurnalist qadınların assosiasiyası, mədəniyyət və incəsənət xadimi olan qadınları birləşdirən «Dünya» qadın cəmiyyəti»); digəri – milli xüsusiyyətə görə («Sona» axalsixi qadın təşkilatı, Yəhudi qadın təşkilatı) birləşdirir. Fəaliyyətdə olan siyasi partiyaların yalnız ikisində – «Yeni Azərbaycan» və «Azərbaycan Xalq Cəbhəsi» partiyalarının nəzdində ölkənin siyasi həyatında fəal iştirak edən qadın təşkilatları mövcuddur.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Bənanyarlı S. Azərbaycan qadınları və siyasi fəaliyyət // Qender: qadın probleminin yeni mərhələsi. /Respublika elmi-prkatik Konfransının materialları. 12 fevral 1998. – B., 1998
2. Абдела Л. Демократия паритета и Группа-300 // Права женщин в России. Законодательство и практика. 2000, № 1
3. Материалы Первой Российской летней школы по женским и гендерным исследованиям «Валдай-96». – М., 1997
4. Общая и прикладная политология /Под ред. В.И.Жукова и Б.И.Краснова. - М.,1997
5. Хрестоматия по курсу “Основы гендерных исследований”. - М., 2000
6. Dr Vadhushree Public Space for Women in Governance: The Experience of India// Newsletter of the Centre for research on Women & Politics. Vol. 1, No 2, 2001
7. Kandieti D. From Empire to National State: Transformation of the Woman Question in Turkey //Retrieving Women History. Changing Perceptions of the Role of Women in Politics and Society. Edited by Jay Kleinberg. UNESCO, 1988
8. K.Janda, J.Berry, J.Goldman The Challenge of Democracy. Government in America. - Boston, 1992
9. Third World Women and the Politics of Feminism. Edited by C/Vonanty, A. Russo, L.Torres. - Bloomington, 1991
10. Women in the Civil Rights Movement. Edited by Vicky Crawford. - Bloomington, 1993
11. www.ipu.org
12. www.idea.int/women/prl/ch2b.htm
13. www.owl.ru/win/books/gender/index.htm
14. www.library.cornell.edu/colldev/mideast/womtur_1.htm
15. http://demo.interpro.ru/content/win/books/gender/11.htm